# DİRƏNİŞ səsi

Azərbaycan
Milli
Dirəniş
Təşkilatı
" AMDT "


**AZƏRBAYCAN DƏRƏLƏRİ BİTMƏYİNCƏ DİRƏNƏCƏYİK**







**Azərbaycan Öz Dilində Danışma Həsrəti Çəkir**

**Azərbaycan Xocalı Soyqırımına Ağlayır**


**AMDT-enin Rəsmi Yayını**

**Mart 2007 Sayı 4 il 1**

**Bu sayıda:**


- **Ön Söz**
  Azərbaycan Xocalı Soyqırımına Ağlayır

- **Bildiri**
  AMDT" enin Qanlı 20 Yanvar İldönümü Münasibət ilə Bağlı bildirisi
  AMDT" enin Dünya Ana Dili Günü Münasibət ilə Bağlı bildirisi
  AMDT" enin Xocalı Soyqırımının ildönümü münasibəti ilə bildirisi

- **Stratejik Araşdırma**
  Türkiyənin Siyasi Tənlikləri (Müadilələri) Açısından Güney Azərbaycan Məsələsi
  Kosova : Balkanların Yeni Dövləti
  Avrupa Birliği ve Mikro Milliyetçilik

- **بیانیه**
  بیانیه تشکیلات مقاومت ملی آذربایجان در سالگرد سرکوب خونین 20 ژانویه باکو
  بیانیه تشکیلات مقاومت ملی آذربایجان در رابطه با رویداد های اخیر کرکوک
  بیانیه اول تشکیلات مقاومت ملی آذربایجان به مناسبت روز جهانی زبان مادری
  بیانیه تشکیلات مقاومت ملی آذربایجان به مناسبت سالگرد فجایع خوجالی
  بیانیه تحلیلی به مناسبت اعتراضات ضد آپارتایدی ملت آذربایجان در روز جهانی زبان مادری
  گزارش آسمک از بازداشتها در آستانه روز جهانی زبان مادری
  بیانیه کمیته مردمی دفاع از غرب آذربایجان در خصوص تحرکات اخیر اکراد

- **مقاله**
  هفته ای که با هفت قیام سپری شد
  یو. ائن. پي. او.دا نه لر اولدو؟



Güney Azərbaycan
diresist@gmail.com
direnisesi@gmail.com

# AZƏRBAYCAN XOCALI SOYQIRIMINA AĞLAYIR

dirəniş səsinin REDAKTORU

Ermənilərin yüz ilə yaxın təcavüzünə məruz qalan Azərbaycan torpaqları, Azərbaycan tarixinin trajedisi kimi tarixin səhifələrinə və millətimizin hafizəsinə yazılmışdır. yüz illik Ermənilərin əsgəri saldırıları hansı proseslərdə tanımlana bilər. Yırtıcı Erməni Daşnak və Asala milisləri və yanı sırası Erməni ordusu nəyi amaclamışdır ki Xocalıda keçən yüz ilin dramını səhnəyə çıxarır.

1828-1830 tarixləri arasında Çarlıq Rusiyasının təlaşları ilə İranda yaşayan Ermənilərin bir bölümü Azərbaycanın Qarabağ vilayətinin dağlıq bölgələrinə köç etdirildi. Ermənilərin Dağlıq Qarabağa köç etdirilmələri ilə başlayan Türk-Ermeni çatışmalarının nəticəsində bir qısım Azərbaycan Türkləri Qarabağı tərk etmək durumunda Qaldılar. Ermənilərlə yaşadıqları sorunlar üzündən Azərbaycan Türklərinin tarixdə ilk köç hərəkətləri də beləcə başlamış oldu. Ermənilərin "Böyük Ermənistanı" qurmaq üçün Azərbaycan Türklərini ilk planlı 1905-1907 illəri arasında gerçəkləşdi. Azərbaycan Türkləri daha sonra 1918-20 illərində Rus imperiyasının köməyi ilə Erməni və cilov təcavüzləri nəticəsində ikinci dəfə öz torpaqlarından köç etdirildilər.

1988 ilində silahlı çatışmaya keçən təcavüzkar Erməni ordusu və milisləri, Azərbaycan torpaqlarına göz tikən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində 1988 ilindən atəşkəsin yapıldığı 12 May 1994 tarixinə qədər Dağlıq Qarabağın tamamı da olmaq üzrə toplam 890 şəhər, kənd, qəsəbə Azərbaycan torpaqlarının % 20'sini işğal edilmişdir. Dağlıq Qarabağa da Azərbaycanlılar 2 şəhər, 1 qəsəbə və 53 kənddə məskunlaşmışlardı. Ermənistan silahlı qüvvətləri; 18 Fevral 1992'də Xocavənd'i, 25 Fevral 1992'də Xocalı'nı, 26 Fevral 1992'də Şuşa'nı, 18 May 1992'də Laçın'ı, 4 Aprel 1993'də Kəlbəcər'i, 23 İyun 1993'də Ağdam'ı, 24 Avqust 1993'də Fizuli, 27 Oktyabr 1993'də Zəngilan'ı, 26 Avqust 1993'də Cəbrayıl'ını, 31 Avqust 1993'də Qubadlı'nı işğal etmişlərdir.

Xocalı

Tarix, 25 Fevral 1992. Aradan tam 15 il keçdi. Ağır silahlarla təchiz olmuş Ermənistan Silahlı qüvvələri, 366. Rus Alayının da dəstəyini alaraq, Xocalıya bir gecə yarısı vəhşicəsinə təcavüz etdi.

Şəhərdə yaşayan 3 min Azərbaycanlı yataqlarındaydı . Gözlərini açdıqlarında ölüm qusan silahlarla qarşı qarşıya qaldılar. İnsanlığın dışında olan bir soyqırımı bir insanlığa qarşı olan böyük cinayət. Tam 613 günahsız və sivil insan vəhşicəsinə öldürülmüşdü. Bunların 106 sı qadın və 83 ü də uşaq olmuşdu. Ermənilər, 487 Azərbaycanlını ağır yaraladılar. 1275 insan əsir alındı. Şəhərin sadəcə üçdə biri Xocalı dışına qaça bilmişdi. Fevral soyuğunda buz kimi qarlı dağlar yoluna qaçan Xocalılar Erməninin kin-küdurətli güllərindən belə qurtarsalar da küləyin şiddətindən qaça bilmədilər. Hazır ki yüz ilin dramı baş vermək dəydi və dünyanın qulağı kar olmuşdu.

Həmən bu gündə dünyanın Ermənipərəst və Ermənini yapdığı soyqırımına Dəstək verən dövlətləri Qarabağda və Xocalıda baş verən cinayətlərin tanıması və tanınmasından da belə yan keçirlər. Ermənipərəstlər, tamamən savaş şəraitində meydana gələn olayları 93 il sonra xatırlayıb, Türkiyənin üzərinə qullanırkən, sadəcə 15 il öncə dünyanın gözü önündə yaşanan, hələdə 1 milyon qaçqının yurdundan çıxarılması ilə davam edən soyqırımı, insanlığın vicdanına sığışmayan təcavüzü gərməməkdədir.

birləşmiş millətlər təşkilatı , 29 İyun 1993’də “Ermənistanın beynəlxalq hüquq əsaslarını heçə qoyan təcavüzkar və yayılmaçı tutumunu qınayan ” bir qarar aldı. Minsk Qrupu 1996’da Ermənistanı qınayıb, Azərbaycanın torpaq bütünlüyünə sayğı göstərilməsini istədi. Son olaraq Avropa Şurası vəkillər Məclisi Siyasi İşlər Komisyonu üzvü David Atkinson’un, 2 il öncə hazırladığı raportda, “nizami əməliyyat və yayğın etnik düşmənliklər, fərqli etniklərin qovulmasına və sonucda mono-etnik(tək-irq) bölgələr təşkil olmasına nədən olmaqdadır. Bu durum etnik təmizlik qavramına bənzəməkdədir” qeyd oldu.

dünyanın təsbit etdiyi, ancaq gərəyin yerinə gətirmədiyi bu qərarlara da dayanaraq Qarabağ və Xocalı məsələsində “ Xocalıda soyqırımı yapılıb, Qarabağ işğal olub ” qərarların alınmasında əvvəlcə bütün dost və qardaş ölkələrin parlmanında sonrası dünya türklərinin lobbilərinin işbirliyi əsasında bütün ölkələrin parlmanında tanıması və təsdiq olmasını amaclamaq gərəkir. Belə olduğunda Erməni azğınlıqları və dəstəklilərinə ciddi və anlamlı bir cavab verilmiş olur.

Ayrıca bir milyondan artıq dağlarda və çöllərdə kütü vəziyyətdə yaşayan Qarabağlı və Xocalılı vətəndaşlarımızın durumunu incələmək üçün beynəlxalq təşkilatlar tərəfindən incələmə komisyonu

hazırlanmalıdır. Qaçqınların bir gününün gedişatı aydın-açıq sənəd kimi dünya ictimaiyyətində nəyin nə olduğunun bir parçasını anlada bilir.

Bu gün Ermənilərin  böyük Ermənistan iddiaları və Börümüzdə Kürdlərin böyük Kürdüstan lafları hər gündən artıq bölgə türk dövlətlərinin ayıq olmasını istər. Qarabağ ürəyimizin təpən noqtası və damarımızın axan qanıdır. Qarabağsız qalmış ürəklər yalnız murdar Ermənilərin Azərbaycan torpaqlarından qovulması ilə və Qarabağ torpaqlarının azad olması ilə sevinə bilər.
Qarabağda axan qan yerdə qalmaz. Qarabağda Erməni cinayətləri cavabsız qalmayacaq.

# Azərbaycanın Böyük Millətinə Müraciət
# “Qanlı 20 Yanvar İldönümü Münasibət ilə Bağlı ”

## Şərəfli Azərbaycan Milləti*

Bu il 17 ildən sonra yenə milli qurtuluş və azadlıq yolunda ki şəhidlərin 20 yanvar xatirəsini anırıq. Həmən şəhidlər ki öz qanlarının bahasına quzey azərbaycanın milli şərəfi və namusunu geri aldılar. Bu özveriliklər sonucunda torpağımızın quzeyində mübarək dövlətimiz və milli hökumətimiz bir daha yarandı.

85 il öncə Bolşevik və sosialist teatrının heyranları olan kremlinin sərkərdələri və daxili satqınlar buyruğu ilə Məmməd Əmin Rəsulzadə başçılığı altında qurulan milli Azərbaycan dövlətini acımasızcasına yırtıcı qızıl ordu qəddarları tərəfindən çökməyə məruz qoyldu.

Azərbaycan millətinin diləyi və istəklərindən bəslənən milli və tam dünyada keçərli bir dövlətini sınıxa çıxaranlar 70 ilə yaxın islav şovinistinin sosialist ideyaları altında azərbaycan milləti gövdəsinə ən dərin yaranı vurdular ki rus millətinin siyasi və milli mutluluğunu qazansınlar.

Rusun 70 illik azərbaycan millətinə və aydınlarına diktə etdiyi repressiyalara baxmayaraq, milli mücadilə quzey Azərbaycanın damarlarında axmadan bir anda belə olsun diyə durmadı. Həmən mücadilə illəri minlər Azərbaycan millətçi, müsavatçı fədaisi milli dirənişi yönəltmişdilər.

Sonunda 1990 da sovet sosialist birliyi adında olan millətlər zindanının çürümüş dirəkləri yıxıqlığa uğradı. Torpağımızın Quzeydə Milli mücadilə mərhum ə.elçibəy rəhbərliyi altında yüksək düzeydə irəliləyirdi. Azərbaycanın 70 illik neftini və sərvətini Sümürgəyə alan Rus-islav şovinizmi, arzu sarayının yıxılmasına şahid ola bilmirdi. 1990 inci il 20 yanvar gecəsində yenə tarix bir daha təkrar oldu. Qızıl ordunun tankları satqın iqtidar sərxoşlar yardım ilə Azərbaycan milləti və fəallarını aparteidin kin küdurət güllələrinə tuşlayıb və minlər günahsız insanın qanını amansızsa axtmasından da belə çəkinmədilər.

16 inci il dönümü münasibət ilə Quzey Azərbaycanın milli istiqlaliyyəti və bağımsızlığı uğrunda sonsuz və ölümsüz qara yanvar şəhidlərinin xatirəsini anırıq.

**AZƏRBAYCAN**
**MİLLİ DİRƏNİŞ TƏŞKİLATI**
**(AMDT)**

**GÜNEY AZƏRBAYCAN**
**17 YANVAR 2007**

**..................................................................................................................................... Bildiri......**

# Azərbaycan Milli Dirəniş təşkilatının “Dünya Ana Dili Günü Münasibət ilə Bağlı bildirisi”

## Şərəfli Azərbaycan Milləti*

Dünyada çox millətlər öz milli varlıqlarını qorumaq üçün milli savaşa və milli dirənişə doğru gedən yolları və yapıqları düzənləmişdirlər. Banqladeş milləti də öz milli-siyasi haqlarının əldə edilməsi uğrunda böyük səviyyəli mücadilə sürəcinə girmişdir ki həmən mücadilələr sonucunda, o zəfər günləri Banqladeş millətinin tarixi dönüş noxtası kimi qeyd edilir. əldə edilən zəfərlər Banqladeşin ürəkli və cəsarətli mübarizlərinin qanının bahasına qurtulsa da 21 fevral günü benqal fəalları

tərəfindən keçirilən ana dili münasibəti ilə Pakistanın assimilyasiya siyasətinə qarşı aksiyada bir neçə fəallın şəhid olması milli hərəkətin yürüşünü yüksək səviyyəyə daşıdı.

YUNESKO tərəfindən 1999 da 21 fevral günü rəsmiyyətə tanındıqdan sonra hər il bu gündə azad və demokratik ölkələrdə dünya ana dili gününə bağlı özəl törənlər ana dilini əzizləmə münasibəti ilə keçirilir.

Nə yazıq ki İranda başqa sivil ölkələrdən tamamən fərqli olaraq Fars şovinizminin irqçi düşüncələrinin hörümçək tellərində əsir düşən millətlər, ilkin haqlarının başında gələn ana dillərində təhsil almalarına yasaqlamalar qoyulmuşdur və zaman-zaman ana dili ilə bağlı hər hərəkəti ağır zərbələr ilə yatırmışdır.

Azərbaycan milləti 80 il aşırı irqçi və cinayətkar Paniranist və Panariyaist axımlarının yatır-pasdır tutumları altında öz tarixi, iqtisadi, ictimai, siyasi və tərbiyə imkanları yıxıq və düşük duruma gəlmişdir. İranın belə faşisti tutumları altında türk diyə bir varlığın tamamən məhv olası amaclanmışdır.

Azərbaycan milləti keçən illərdə öz milli haqlarını əldə etmək üçün böyük etirazları və hərəkətləri keçirmişdir. Eləcədə bu hərəkətlərin alt yapıqlarının bir təməli, ana dilinin öyrənilməsinin azadlığı belə olsa da, Fars şovinistinin insan haqlarına zidd qüvvələri bütün var gücü ilə dirənən millətimizə qarşı heç hərbədən vaz keçməmişdir.

bu il 21 fevral, uluslarlarası ana dili günü münasibətlərini bir halda ağırlamasını keçiririk ki Güney Azərbaycanda may ayının kütləvi qalxınmalarını yatırmaq istəyən Fars şovinizminin əsgəri və əmniyyəti qüvvələri, Azərbaycan millətinin günahsız oğulları üstünə atəş açma nəticəsində 20 dən artıq şəhid Ana vətən uğrunda qurban oldu. Minlər milli fəal öz haqını müdafiə etməkdən dolayı həbsə alındı.  şəhidlərimizin və dustağa alınan fəalların Fars hökumətin yanında təkcə suçu Türk millətinin milli-siyasi müqəddəratı Azərbaycan millətinin hüzurunda görmək və Ana dilini müdafiə etməkdir.

Ana vətənin özgürlüyü uğrunda qanı torpağımızı qızaran şəhidlərin xatirəsini anaraq və bütün Şovinizm belini sındıran iradəli milli hərəkətin cəsarətli milli-siyasi məhbuslarına Azadlıq diləyi ilə bildiririk ki:

Azərbaycan milli dirəniş təşkilatı(AMDT) Azərbaycan millətinin milli haqlarını əldə edincə milli dirənişin ideyaları üzərində dirənəcəkdir. 21 fevral, uluslararası ana dili günündə hər növ sivil və demokratik səviyyədə etirazın keçirilməsini özünə və Böyük və şərəfəli Azərbaycan millətinə vaz keçilməz haqq kimi görür.

Azərbaycan milli dirəniş təşkilatı(AMDT) Azərbaycan millətinə müraciətində istəyir, uluslarlarası ANA dili gününün aksiyalarına qatılmaqla öz etirazlarını İranın aparteid siyasətlərinə bildirsinlər.

Ana dilində təhsil alma hər Azərbaycanlının danılmaz haqqıdır.
Yaşasın uluslararası Ana dili günü    Yaşasın milli-Ana türk dilimiz

**AZƏRBAYCAN**
**MİLLİ DİRƏNİŞ TƏŞKİLATI**
**(AMDT)**

**GÜNEY AZƏRBAYCAN**
**17 YANVAR 2007**

# Azərbaycan Milli Dirəniş Təşkilatının(AMDT) Xocalı Soyqırımının ildönümü münasibəti ilə bildirisi

## Şərəfli Azərbaycan Milləti*

1992 ilinin 26 fevralı Azərbaycan milləti tarixinin ən hüznlü və kədərli günüdür. Ana yurdumuzun quzeyi, bağımsızlığından bir il sonra bir halda ki rəhmətlik Ə.Elçibəyin milli dövləti Rus sümürgəliliyindən qalan iqtisadi-ictimai problemlərlə və içəridə Rusa və İrana aid milli dövləti yıxmağa çalışan qüvvələrlə əlbəyaxa olmuşdu aşırı irqçi DAŞNAK, HİÇKAK və ASALA milisləri, Ermənistanın ordu yanı sırasında Xocalını neçə gün əsgəri mühasirəyə aldıqdan sonra işğal etdilər.

Bu acı və kədərli gündə Dünya ictimaiyyəti xocalıda baş verən cinayətlər qarşısında və Beynəlxalq qurumların amaclı susmalarını gördükdə utanır. bu gündə minlər Bati Azərbaycan (Urmu, Salmas-xoy) türkünün qatili olan cinayətkar Marşimon övladları Şuşa, Laçın və Xocalıda türkə və türk övladına kin-küdurətli süngülərini, Azərbaycan ana və qızlarının ürəyinə taxdılar.

Kiçik yaşlı günahsız Azərbaycan uşaqları yırtıcı Daşnakların güllələrinə tuşlandılar. Analar övladlarını və namuslarını qorumaq üçün dağlara doğru qaçdılar və qışın o canı yaxan soyuğunda dağlara da donub ölməyi namusun ləkələnməsindən üstün seçdilər. Ermənistanın xocalıda cinayətlərinin Sənədli görüntüləri hər ayıq və azad vicdanlı insanın içərisinə od çəkə bilir.

14 il Qarabağın və Azərbaycan türklərinin soyqırımından ötürsədə hələlik siyasi və iqtisadi güclərin çıxarları uğrunda Qarabağda və Xocalıda baş verən cinayətlərin çox bölümü gizli qalmaqdadır. İranın islamiyyət və şiəlilik harayları ki dünyanın qulağını kar edibdir və Livan(lübnan), iraq, əfğanistan, Bəhrein ölkələrində şiə qardaşlarım diyə sinə gərmələri yanında başqa islamı ölkələr içərisində islamiyyətin liderliyini axtaran İran, həmən Qarabağda və Xocalıda cinayət baş verən

illərdə nə təkcə məsələdən yan keçdi bəlkə həm o gün və həm bu gün işğalçı və türk-müsəlman qıran Ermənistanın yanında durdu.

İranın Fars şovinizmi Ermənistana maddi və mənəvi yardımlarının və himayələrinin yüksək səviyyədə genişlənməsindən və artmasından şaşıran Ermənistan prezidenti Koçariyan, İran və Ermənistan arasında ki əlaqələri belə ifadə edə bilmişdi: İran Ermənistanın Azad dünyaya Açılan qapısıdır. İran bizim böyük qardaşımız və mənim ikinci vətənimdir ki bizi heç zaman tək buraxmayacaqdır.

Azərbaycan müsəlman türkülərin soyqırıma məruz qalmasını dəstəkləyən dövlətə və rejimə ən utandırıcı və çirkin dosyadir ki onun vay islam səsi İndoneziyanın urmanlarına, Avropanın modern kafişaplarına və Afrikanın quruluqlarına qədər getmişdir. Hər gün minlər qapısı möhürlü uzun arabalar İran sınırlarından Ermənistana doğru yüklənir, minlər megawatt saat elektrik enerjisi Ermənistana təqdim olur, milyonlar Metre Küp qaz ixrac olur saqın ki türk-müsəlman torpaqlarının işğalçıları və cinayətkarları soyuğun dərdini çəksinlər.

Azərbaycan Milli Direniş Təşkilatı(AMDT) işğal olunan Qarabağın və Xocalının məzlum şəhidlərinin bu gündə xatirəsini anaraq İran dövlətinə son və qəti olaraq Ermənistana utanmaz-utanmaz himayələrinin kəsilmə qərarına gəlməni istəyir. Azərbaycan milləti və onun Milli direnişi Qarabağın işğal olunmuş torpaqlarının azad olunmasınadək qərarlıdır və bir anda belə olsun bu qərarın susmasına imkan verməyəcəkdir. İşğalçı Ermənistana iqtisadi və maliyyə yardımların davamı İran dövlətinə gələcəkdə ciddi zərərləri olaraq Azərbaycan milləti tərəfindən heç zaman bağışlanılmayacaqdır.

**AZƏRBAYCAN**
**MİLLİ DİRƏNİŞ TƏŞKİLATI**
**(AMDT)**

**GÜNEY AZƏRBAYCAN**
**26 FEVRAL 2007**

# Türkiyənin Siyasi Tənlikləri (Müadilələri) Açısından Güney Azərbaycan Məsələsi

AMDT-enin DIŞ KOMİTƏSİ
Stratejik Araşdırma Qolu

Güney Azərbaycan Milli Hərəkəti və Azərbaycan Türkçülüyü açısından Türkiyənin önəmi çox böyükdür. Türkiyə istər siyasi, istər ekonomik ve istər əsgəri baxımdan Türk Dünyasının en böyük və en güclü ölkəsidir. Uzun illər Türkiyə dünyada Türklüyün tək təmsilçisi olmuşdur və bu gün belə dünyada böyük ölçüdə Türk adı Türkiyə ilə eşit tutulmaqdadır. Batı Türklüyünün iki ana parçası olan Azərbaycan və Türkiyə coğrafi olaraq yan yana olduqlarından jeopolitik olaraq bir-birlərinə çox önəmlidirlər. Azərbaycan Türkiyənin Türk Dünyasına çıxış yolu ikən Anadoluda Azərbaycanın açıq dənizlərə və Batı dünyasına açılan qapısıdır. Azərbaycan və Türkiyə millətləri Oğuz Türklərinin soyundan gələrək Türk toplumlarının içində en yaxşı bir-birinin dilini anlaya bilməkdədirlər. Bütün problemlər və çətinliklərə rəğmən Türkiyədə Türk milliyyətçiliyi üzərinə qurulan bir dövlət var və dış Türklərə dəstək qonusu keçən 100 il içində Türkiyədə ən çox tartışılan qonulardan olmuşdur.

Bütün bu gerçəkləri bir arada diqqətə aldığımız zaman Türkiyənin Güney Azərbaycan Milli Hərəkəti və Azərbaycan Türkçülüyü açısından həyati dərəcədə önəmli olduğu sonucuna varmaq çox rahatdır. Bu nədən ilə Türkiyəni hər yönü ilə tanımaq, Türkiyənin potensiyalarından nə şəkildə yararlanmağı bilmək və Türkiyə Cümhuriyyətinin keçən 80 il içində uyguladığı doğru və yanlış politikalarından dərs almaq Güney Azərbaycan Milli Hərəkətinin ən önəmli məsələlərinin biri olmalıdır.

Bu doğrultuda, yurd içində Azərbaycan Milli Hərəkətinin nəzəriyyə və dinamik potensiyaya sahib olan və öndə gələn təmsilçilərindən olan “Azərbaycan Milli Dieniş Təşkilatı” bu zərurəti hiss edərək dünya və bölgə güclərinin içində “Qardaş Vətən” Türkiyə’yə xüsusi önəm verməkdədir. Bu yazıda başlıqdan da anlaşıldığı kimi Türkiyənin siyasi dəngələri baxış açısından Güney Azərbaycan məsələsinə baxmaya çalışaraq Türkiyədə Güney Azərbaycana olan baxışı təşkilatın üyələrinə və

Azərbaycan Aktuallarına aydınlatmaya çalışacağıq. Bu mənzur üçün de Türkiyənin siyasi dəngələri və durumunu iç və dış olmaq üzere iki bölümdə incələyəcəyik.

## Türkiyənin İç Siyasi Dəngələri Və Güney Azərbaycana olan Ümumi Baxış

Günümüz Türkiyəsində siyasi görüşlər və bu görüşlər üstündə qurulu olan qurumlar, partiyalar, təşkilatlar və sivil toplum örgütlərini (NGO'lar) dörd ana bölümə ayıraq mümkündür:

- **Dinçi (İslamçı) Axım**
- **Sol ( Kommunist - Sosialist və Sol ulusalçı) Axım**
- **Milliyyətçi Axım**
- **Ordu**

Bu dörd ana bölümün dışında radikal bölücü Kürd  və aşırı yıxıcı islamçı yeraltı örgütlər vardır ki Türkiyənin iç siyasi dəngələri baxımından bizim bu yazımızın mövzusuna daxil deyildir və ayrıca bir araşdırmada ələ alınmalıdır. Yalnız Kürd məsələsi Türkiyə dış politikasının Güney Azərbaycan tavırında əsas rol oynadığından dış politika bölümündə bu qonuya dəyinəcəyik.

Bir de bu mövzuya diqqət çəkmək lazımdır ki ümumiyyətlə Türkiyədə Güney Azərbaycan haqqında bir bilgisizlik və xəbərsizlik atmosferi hakimdir. Ümum xalq genəldə Güney Azərbaycanı tanımır və Azərbaycan deyincə çox Azərbaycan Cümhuriyyəti və Əliyevlər ağla gəlir. Adını çəkdiyimiz dörd siyasi dəngə ünsüründə də (ordu da daxil olmaq üzrə) Güney Azərbaycan haqqında ciddi bir bilgi əskikliyi vardır.

Türkiyə əfkarı ümumisi Güney Azərbaycanı ya tanımır ya da İran pəncərəsindən baxaraq "İran Azəriləri"ni! İranla bütünləşmiş bir topluluq olaraq görür. Yalnız içəride Milli Hərəkətin kütləvi hərəkətlər orta qoymasından sonra və Türkiyədəki genəlliklə Güneyli öyrəncilərdən olan Milli Hərəkət fəallarının əməkləri sayəsində Güney Azərbaycan qavramı və Azərbaycan Milli Hərəkəti son illərdə oda məhdud şəkildə mediaya daşınmaya başlamışdır.

İçəridən gələn xəbərlərin Türkiyə mediasında yansımaması və ya az yansıması isə əsasən Türkiyədəki Amerika düşmənliyi və Kürd bölücülüyündən qaynaqlanmaqdadır. Bu nədənləri yazımızda aydınlatmaya çalışacağıq.

## Dinçi (İslamçı) Axım

Bu günün Türkiyəsində hər nə qədər rejim Türk milliyyətçiliyi üzərində qurulu olsa da islamçı partiya və təşkilatlar xalq tərəfindən ən çox dəstəyi görməkdədirlər. Günümüz Türkiyəsində islamçı hərəkətlərdən yana böyük bir əfkarı ümumi var. Bu qədər geniş bir islamçı dabanın ortaya

çıxmasının nədənlərini araşdırmaq bu yazının qonusunu aşar, yalnız qısaca toxunmaq istəsək deməк lazımdır ki keçmiş səksən ildə din əleyhinə icra olunan bəzi yanlış politikalar bu durumun meydana gəlməsinə səbəb olmuşdur. Bu qonuda özəlliklə bizim almamız gərəkən çox böyük dərslər var.

Türkiyədə çox sayda islamçı partiya və quruluş vardır. Ilımlı islamçılığı Adalet və Kalkınma Partiyası (AKP) təmsil edir ki bu gün iqtidardadır və geniş sayıla biləcək bir dəstəkçi cəmiyyəti də vardır. Yaxınlaşan seçimlərdə AKP'nin bir miqdar azalmayla yenə de yüzdə 25 ilə 30 oy alması gözlənir. Radikallıq dərəcəsinə görə daha sonra ki sıralarda Səadət Partiyası, Nurcu Cemaeti və Süleymençı Cemaeti kimi quruluş və ya cemaetler yer alır. Süleymançıların son dərəcə aşırı və Taliban islamına bənzər bir dini görüşləri var. Bu dini axımların içində bəzən xəfif bir Türkçülük görünür. Qarşı nöqtədə də bəzi Türkçü quruluşlarda da dinçi katagorisine girebilecek eder qoyu bir din teessübü var. Bunların ən bariz örnəyi Böyük Birlik Partiyası (BBP) dir.

Dinçi kəsimin genəldikdə Türklüyə önəm vermədiyindən Azərbaycana da özəl baxışları yoxdur və Azərbaycanı sadəcə İslam Dünyası qalibində dəyərləndirməkdədirlər. Bu kəsim bəzən şiə – sünnilik məsələsindən dolayı Azərbaycanı antıpati ilə də qarşılaya bilir.

Amerikanın bölgədəki etkinliyindən doğan Amerika düşmənliyindən dolayı günümüz Türkiyəsində ciddi bir İran səmpatisi ortaya çıxmışdır bu səmpatini dinçi kəsimin arasında da ciddi şəkildə hiss etmək mümkündür. Bu nədənlə otomatikman olaraq Güney Azərbaycan davası bu kəsimin gözündə məşruiyyətini itirir. Türkiyə toplumunun haradasa yüzdə 30 ilə 40'ının və hətta bəlkə də daha çoxunun Türk soylu olmadığını və bu Türk olmayan ünsürlərin dinçi çevrələrdə ciddi anlamda ağırlıq sahibi olduğunu da göz önündə bulundurduğumuzda dinçi kəsimin bu tutumunun anlaşılması daha da rahat olacaqdır. Qısacası diyə bilərik ki genəl olaraq AKP hökuməti də daxil olmaq üzrə Türkiyənin dinçi kəsiminin Türklük və dolayısıyla Azərbaycan dərdi yoxdur və hətta bəlli durumlarda bu davaya qarşı da çıxa bilər.

## Sol (Kommunist Sosialist və Ulusalçı Sol) Axım

Əfkarı ümumi dəstəyi açısından Dinçilərdən sonra ikinci sırada yer alan sol axım öz içində Kommunist-Sosialist və Ulusalçı Sol olmaq üzrə iki əsas qolda ayrılır.

Kommunist-Sosialist partiya və təşkilatlar xalq arasında olduqca az oy dabanına sahibdirlər və daha çox bilim yurdlarında öyrəncilərin arasında nüfuzları vardır. Türkiyə Kommunist Partiyası (TKP) və İşçi Partiyası bu görüşün öndə gələn təmsilçiləridir. Bu partiyalar hər nə qədər xalqların özgürlüyü və qardaşlığından danışsalar da bu mövzuya çox da önəm verməzlər və əsasən işləri Amerika və Batı

(İmperializm) düşmənliyidir. İndi bu nədənlə də düşmənin düşməni dostdur məntiqindən yola çıxaraq son zamanlarda ciddi bir İran dostu olub Güney Azərbaycan məsələsinə soyuq baxmaqdadırlar.

Ulusalçı Sol da əsasən Cümhuriyyətçi Halk Partiyası (CHP) və daha sonra ki sıralarda Demokratik Sol Parti (DSP) kimi partiyalardan təşkil olur. Bu görüşün daban oyu Ələvi Türklərindən və çoxunluqla Türkiyənin batısında ki böyük şəhərlərdə yaşayan laik sünni Türklərdən təşkil olmaqdadır. Ulusalçı Sol Türkiyə milliyyətçiliyi yapar və Türklüyü Türkiyəlilik çərçivəsində tanımlar. Bu görüşün mənsubları Türkiyənin dışındaki Türklərə ilgi göstərməz və onun yerinə Türkiyə Cümhuriyyətinin sınırları içində doğulan hər kəsi Türk sayar. Yani onlara görə Türklük bir soydan daha çox bir vətəndaşlıq bilincidir. Bu düşüncənin təməl daşıyıcıları olan Ələvi Türkləri Azərbaycan Türkləri ilə məzhəbi inanc, danışıq şivəsi, ədəbiyyat və boy (el) mənsubiyyəti anlamında haradasa eynidirlər. Ancaq tarixləri boyunca sünni Türklər tərəfindən davamlı bir basqıya məruz qaldıqları səbəbi ilə ümumi şəkildə sol düşüncə tərzini mənimsəyiblər və hər hansı bir milliyyətçi hərəkətə şübhə ilə baxırlar. Dolayısıyla ən azından indilik Ələvi Türklərinin Güney Azərbaycan davasında olumlu(müsbət) tutum sərgiləmələrini gözləmək əbəslikdir. Yalnız bilmək lazımdır ki uzun zamanda Əlevi Türkləri Azərbaycan Türklüyü ilə Anadolu Türklüyü arasında yıxılmaz bir körpü ola bilərlər.

Ulusalçı Sol görüş də əsasən Amerikanın bölgədəki varlığından doğan Kürt sorunu və Türkiyə torpaq bütünlüyünün pozulması qayğısı ilə kəsinliklə İranın dağılmasından yana deyildir. Bu görüşü mənimsəyən quruluşlardan bugünkü şərtlərdə İran Türklüyünə mühtəməl bir olumlu tutum gözlənə bilərsə də Güney Azərbaycanın bağımsızlıq davasına hər hansı bir yaşıl işığın yanması olası görünmür.

## Milliyyətçi (Türkçü) axım

Türkiyədəki Türk milliyyətçiliyi haqqında ayrıca bir yazı yazmaq və məsələni ətraflıca araşdırmaq lazımdır çünki bu məsələ Azərbaycan Türkçülüyü və Azərbaycan Milli Hərəkəti açısından son dərəcə önəmli və həyati bir məsələdir. Gələcəkdə bu qonu ayrı bir yazıda müstəqildən ələ alınacaqdır. Yalnız bu yazımızda bu məsələyə qısaca da olmuş olsa yer vermək niyyətindəyik.

Gerçək budur ki bu gün Türkiyədə Türkçülük ciddi bir ideolojik böhran dönəmi keçirməkdədir. Bir zamanlar Türkiyə Cümhuriyyətinin quruluş fəlsəfəsi olan Türk milliyyətçiliyi daha sonra əsir Türkləri qurtarma və kommunizm yayılmacılığına qarşı Türkiyənin torpaq bütünlüyünü qoruma görəvini öhdəsinə almışdır və başarılı da olmuşdur. İstər cümhuriyyətin quruluş dönəmində istər daha sonra sovetlərin dağılmasına qedərki dönəmdə Ülküçü Hərəkət adı ilə bilinən Türk milliyyətçiliyi axımı

həqiqətən təqdirə dəyər müvəffəqiyyətlər əldə etmiş və Türkçülük adına böyük bir tarix yazmışdır. Atatürkdən sonraki Türkçülüyün ən bariz özəlliklərindən biri dinə ağırlıq vermə faktoru olmuşdur. 1950'lərdən etibarən ortaya çıxan Türk-İslam Sintezi bu gün belə etkinliyini qorumaqdadır.

Sovetlərin dağılmasından sonra kommunizm təhlükəsinin ortadan qalxması və əsir Türklərin də nə şəkildə olursa olsun bağımsız olması ilə Türkiyədə Türkçülük ideolojik boşluğa düşmüşdür. Bu ideolojik boşluq bir çox dəyərli və səmimi insanların milliyyətçi quruluşlardan ayrılmasına və zaman içində milliyyətçi quruluşların bəzi yasadışı işlərə bulaşmasına nədən olmuşdur. Özəlliklə bilimyurdularında ki gənclik qollarının yanlış yönətimi sayəsində bu gün harandasa Ülkücü kəlməsi cahil və qaba kəlmələri ilə eyni anlama gəlməkdədir.

Bu gün Türkiyədə Türkçülük Milliyyətçi hərəkət Partiyası (MHP) və daha sonraki sıralarda Böyük Birlik Partiyası (BBP) kimi partiyalarla tanınmaqdadır. Ən böyük milliyyətçi quruluş olan MHP partiyası sünnəti olaraq bir %7-8 ilə 10'luq oy dabanına sahibdir. Bu partiya keçən seçimlərdə lazım olan oyu toplaya bilməyib və məclisə girə biləmişdi ( Türkiyədə bir partiyanın məclisə girə bilməsi üçün ən az %10 oy alması lazımdır). Yalnız gələcək seçimlərdə MHP'nin son vaxtlarda demokrat üsularını milliyyətçi düşüncələri kimi eyni yerdə dəyərləndirmələri(Milliyyətçi olmayan demokrat ola bilməz, demokrat olmayan milliyyətçi) sonucunda %10'luq səddi aşıb məclisə girməsi gözlənir. MHP'nin bu oy qazanması partiyanın özündən asılı olmayıb ölkənin genəl durumundan qaynaqlanmaqdadır. Genelde PKK ve Qıbrıs meselesi kimi milli sorunların gündəmdə olduğu zamanlarda xalqın milliyyətçi duyğuları təhrik olub MHP kimi milliyyətçi söyləmli partiyalara oy vermələrinə nədən olar.

Əslində hər nə qədər də Türkiyədə Türkçülük sadəcə MHP və BBP partiyaları ilə tanınsa da bu partiyaların dışında da belli bir milleyyətçi kitlə(cəmiyyət) vardır. Bu kitlə daha gerçəkçi və daha çağdaş bir kitlədir. Bu kitlə bəzən Yeni Türkçülük Dalğası adı ilə anılır. Yalnız bu kitlə hələ olduqca kiçikdir və hər hansı bir orqanizasyona sahib deyildir. Ancaq belə nəzərə gəlir ki bu kitlə də böyümə və orqanizə olma potensiyası vardır.

Gerçək budur ki bu gün Güney Azərbaycanda var olan Türkçülük Türkiyənin bügünkü mühafizəkar, dinçi və durqun milliyyətçiliyinə deyil Atatürk dönəmində ki laik, qurtuluşçu, devrimçi və dinamik milliyyətçiliyinə bənzər.

Türkiyədə ki milliyyətçi kəsimin qalib atmosferin də Türk Dünyası və Diş Türklər qonusu çox tartışılan bir mövzudur və əsasən bu mövzu və ya başqa adı ilə Turançılıq Türkiyə Türkçülüyünün təməl söyləmlərindəndir. Bu çərçivədə ideolojik olaraq Azərbaycana yaxlaşım olduqca olumlu və yaxşıdır. Ancaq taktik yetərsizliyi ilə bərabər Amerika düşmənliyi, Kürd məsələsi və Türkiyənin

torpaq bütünlüyü mövzusu Ulusalçı Solda olduğu kimi Milliyyətçi kəsimdə də Güney Azərbaycan davasına mənfi təsir qoyur. Bölgənin bugünkü şərtlərində indilik Türkiyənin Türkçü kəsimi İranın torpaq bütünlüyünü var gücü ilə savunur. Bu çərçivədə İran Türkçülüyünə sempati ilə baxan Türkiyə Türkçülüyü Güney Azərbaycanın bağımsızlıq mücadiləsinə soyuq yanaşır.

**ordu**

Ordu Türkiyədə ən etkin(təsirli) siyasi güc mərkəzlərindən və hətta bir çox fikir sahibinə görə Türkiyənin dərin dövlətidir. Yalnız ordu məsələsi olduqca qarmaşıq və incə bir məsələ olduğu üçün bu qonunu ayrıca bir yazıya buraxırıq və bu qedərinə kifayət edirik ki:
Ordu hələ də Türk milliyyətçiliyi və Atatürkçülük anlayışını böyük ölçüdə qoruyur və hələ də Türkiyədə ən önəmli güc mərkəzlərindən biri və bəlkə də en güclüsüdür. Yapılan anketlərə görə ordu xalqın ən çox güvəndiyi qurumdur. Fəqət ordunu etkisiz halə gətirmək və iflic etmək üçün çox ciddi çalışmaların cərəyanda olduğu hiss edilir. Türkiyənin içindən və dışından Türk ordusunun üstündə çox ağır basqılar var. Özəlliklə AB ölkələri ordunun siyasi etkinliyidən olduqca rahatsızdırlar və nə olursa olsun ordunu Türkiyənin siyasət səhnəsindən silməyə çalışırlar. Halbuki ordu laik ve Atatürkçü cümhuriyyətin habelə Türkiyə torpaq bütünlüyünün əsas qurucusudur. Çox böyük ehtimalla ordunun siyasət səhnəsindən silinməsi cümhuriyyətin çöküşü və Türkiyənin parçalanması ilə sonuclanacaqdır. Bu isə istər Anadolu Türklüyü istərsə de Azərbaycan Türklüyü açısından tam bir faciə anlamına gəlir.

Odunun içində Güney Azərbaycan məsələsinin yetərincə bilindiyi zən edilmir. Ordu zabitləri içində bezi yetkinlilərin Güney Azərbaycan Bağımsızlığı məsələsinə şəxsi maraq olsa da qurumsal olaraq ordunun necə bir siyasət izləyəcəyinə dair rəsmi və ya qeyri rəsmi hər hansı bir fikir bildirilməmişdir. Ancaq yenə də Amerikanın bölgədəki varlığı və Kürd bölücülüyü nədəni ilə hazırdakı şərtlərdə ordudan qurumsal bir olumlu yaxlaşım mühtəməl görünmür.

Türkiye’nin dış siyasi dəngələri açısından Güney Azərbaycan Məsələsi

Türkiyə dış politika açısından çox zor bir dönəm keçirməkdədir. Avropa Birliyinə üyəlik sürəci və AB’ın Türkiyənin önünə qoyduğu ağır şərtlər, sözdə Erməni Soyqırımı, Qıbrıs, Kərkük və quzey İraq Kürdləri, Qaradəniz bölgəsində Rum Pontus Dövləti, İstanbulda Ruhban Okulu (xiristiyən dini məktəbi) və en önəmlisi Güney Doğuda Kürt terrorizm və bölücülüyü sorunları Türkiyəni dış politika səhnəsində ciddi şəkildə sıxışdırmışdır.

Türkiyə dövləti və milləti bu sorunların bir çoxunun ip ucunu Avropa və Amerikada axtarırlar və ya hətta doğrudan onları suçlandırırlar. Günümüzdə Türkiyədə Amerika antipatisi zirvədə və AB’yə

dəstək son anketlərə görə %40'lara düşübdür. Daha indidən AB'yə üyəliyin dəftəri qapanmış kimi nəzərə gəlir. Artıq AB'yə girməyi savunan quruluş çox çətin tapılır. Türkiyənin Batı dünyasından qopub Doğuya yaxınlaşma sürəcinin başlandığının bəlirtiləri artıq ortaya çıxmaya başlamışdır.

Amerika ilə Türkiyə hər nə qədər stratejik ortaqlıqları olsada Amerikanın bölgədə var olması və hələ İraqda ki uygulamaları Türkiyəni ciddi şəkildə düşündürür. Quzey İraqda bir Kürt dövlətinin qurulması hələ Kərkük kimi bir altın yatağını da içinə alan bir Kürt dövləti Türkiyəyə görə tam bir faciədən başqa heç bir şey deyildir. Türkiyəli siyasətçilərə görə İraqdan sonra İranın parçalanma sürəcinə girməsi və Quzey İraqa tay İranda da bir Kürt oluşumunun ortaya çıxması Türkiyənin parçalanmasına doğru atılan bir addımdır. Türkiyədəki genəl inanışa görə Batılı güclərin planlarında İrandan sonra parçalanmanın sırası Türkiyəyə gəlir. Türkiyənin bütün düşüncə axımları və yetkili qurumlarının bu düşüncə üzərində müttəfiq olduqları görülməkdədir.

İndilik Türkiyədə kiçik bir milliyyətçi kəsim Güney Azərbaycan bağımsızlıq mücadiləsinə dəstək verir ki bu kəsim de olduqca kiçik olması ilə birlikdə heç bir quruluş və ya yetki sahibi deyildir.

## Sonuc

Türkiyə  toplumunda (soy olaraq Türk olmayanlar və aşırı dinçi kəsim istisna olmaqla) Türk Dünyasına qarşı bir sevgi və özləm vardır və dolayısıyla Güney Azərbaycanın bağımsızlıq mücadiləsinə dəstək vermə potensiyası vardır. Yalnız qısa zaman içində bir tərəfdən Güney Azərbaycandan olan ümumi bilgisizlik və bir tərəfdən də Amerikanın bölgədə olamsı və müsəlman millətlərə uyguladığı şiddət nəticəsində Türkiyədə ortaya çıxan Amerika düşmənliyi, Kürt sorunu və qisməndə Batı dünyasının qarşısında Türkiyə dış politikasının tıxanmışlığının ortaya qoyduğu şəraitin nəticəsində Türkiyədən çox bir şey gözləyə bilmərik.

Yalnız biz belə inanırıq ki Azərbaycan Milli Hərəkətinin daha ciddi və pratik bir mərhələyə gəlməsi ilə Türkiyə  dövlət və toplumunun da baxışı dəyişməyə başlayacaqdır. Yəni daha doğrusu Azərbaycan Milli Hərəkətini hesaba qatmaq məcburiyyətində qalacaqdır. Bölgədə Azərbaycan Milləti ilə Türkiyə Millətinin uzun müddətli milli çıxarları böyük ölçüdə örtüşməkdədir və dolayısıla kritik(böhran) anda Türkiyə Azərbaycan Milli Hərəkətindən yana tavır almaq zorunda qalacaqdır. Azərbaycan Türkləri ilə İran Kürdləri Batı Azərbaycan üstündə çatışmaya girərsə Türkiyə ən azından İran torpaqlarında meydana çıxan Kürt oluşumunu öz sınırlarından uzaqlaşdırmaq və Türk Dünyası ilə torpaq bağlantısını saxlamaq üçün məcburən Azərbaycan Türklərinin yanında yer alacaqdır.

Yalnız o anın gəlməsi üçün Milli Hərəkət və onun İçində "Azərbaycan Milli Direniş Təşkilatı"nın ciddi teorik və pratik çalışmalar yürütməsi lazımdır.

# Kosova : Balkanların Yeni Dövləti

Keçən ilin Mayıs ayında Sirbistan dan ayrılan Qaradağın bağımsız bir ölkə olması ilə birlikdə Əski Federal Yuqoslavını təşkil edən bütün Cümhuriyyətlər bağımsız bir ölkə oldular. Miloşeviç iqtidarında olduğu dönəmdə Sirbistanın başlatdığı "genişlənmə" və basqı siyasəti, 1999 ilində Kosovadaki Arnavutlar'a soyqırımların yapılması ilə davam etdi. Ancaq ABŞ'ın öncüllüyündə başladılan NATO müdaxiləsindən sonra Sirbistan ordusu və polis gücləri Kosovadan çəkildi və bölgənin idarəsi BM'mə keçdi. İndi tam səkkiz il sürən bu durum dəyişmək üzrədir.

2006 ilində BM'in özəl təmsilçisi Marti Ahtisaari'nin nəzarətində Sirbistan və Kosovalı yetkililər arasında başladılan və Kosova statusunu bəlirləyəcək müzakirələr yapılmışdı. Tərəflərin müzakirə platformalar arasında bir yaxınlaşma sağlanmadan bu müzakirələr sona gəldi. Kosova statusunu bəlirləmək üzrə, BM özəl təmsilçisinə bir "Status Önərisi"ni hazırlaması üçün ixtiyar verildi. Söz konusu önəri, 2 Fevral 2007 tarixində Sirbistan və Kosovalı yetkililərə sunuldu. 60 səhifəlik "bağımsızlıq" kəlməsi və "Kosova'nın Sirbistan sınırları içində olması" ifadəsinin yer almadığı önəridə, Kosova'ya bağımsızlıq veriləcəyi bəkləntisini qüvvətləndirən bəzi ana fikirlər bunlardır:

Kosova'nın öz Ana yasası olacaqdır;

Kosova, öz adına uluslararası anlaşmaların yapılması və uluslararası qurumlarda üzviliyi tələb etməsi haqına sahib olacaqdır;

Kosova'nın polis və güvənlik(təhlükəsizlik) gücləri qurulacaq;

Geniş yetkilərə sahib uluslararası qurumlar Kosova'da varlığını sürdürəcəkdir;

Çox etnikli yapısını təmsil edəcək bayrağa və milli marşına sahib olacaqdır.

Digər tərəfdən önəri, Kosovalı Sirblərə eyitim və finansman(maliyə) konusunda olduqca geniş otonominin verilməsini ön görməkdədir. Ayrıca, Sirblərin əksəriyyət olduğu bələdiyyələrdə polis və məhkəmə sahələrdə də geniş yetkilərə sahib olacaqlardır. Kosova Parlamannında (azınlıqları ilgiləndirən qonularda) qərarın alına bilməsi üçün, Arnavut olmayan üzvlərin çoxunun söz qonusu qərarı qəbul etməsi gərəkməkdədir. qısacası, önəridə yerli idarələrinin gücləndirilməsi ilə Sirblərin kültürəl və dini özgürlüklərinin güvəncə altına alınmasına çalışıldığı görülməkdədir. Ayrıca,

Kosovanın başqa ölkə torpaqları üzərində haqq tələb etməyəcəyi və başqa ölkə və ya bölgə ilə birləşməyəcəyi de vurğulanmaqdadır.

